

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (21.128)

28 noyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasının Baş naziri Çanq Honqvonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında infrastruktur, energetika, inşaat, informasiya texnologiyaları, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafael Mendivil Peydronun etimadnaməsini qəbul edib.

Rafael Mendivil Peydro etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Malta Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Con Debononun etimadnaməsini qəbul edib.

## Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işləri bütün sahələri əhatə edir

*Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması paytaxt Naxçıvan şəhərinin də simasını xeyli dərəcədə dəyişdirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"da qarşıya qoyulan vəzifələr uğurla icra olunur. Sənəddə nəzərdə tutulmuş yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, təhsil, səhiyyə və mədəniyyət infrastrukturunun inkişafı, habelə yeni inzibati və yaşayış binalarının tikintisi, eləcə də mövcud olanların yenidən qurulması işləri davam etdirilir.*

Hazırda "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən Əziz Əliyev küçəsindən Naxçıvan Şəhər Avtovağzal Kompleksi istiqamətində, eyni zamanda avtovağzal kompleksindən başlayaraq İslam Səfərli və Nizami küçələri boyunca uzanan avtomobil yollarının yenidən qurulması davam etdirilir. Görülən işlər nəticəsində İslam Səfərli küçəsində yol yatağı genişləndirilib, ümumi uzunluğu 3300 metr olan yolun 2620 metrədək olan hissəsinə asfalt örtük salınıb. Yolun eni 20 metrədək genişləndirilib, 15 santimetr qalınlığında asfalt döşənib. Hazırda yolda kommunikasiya xətlərinin dəyişdirilməsi işləri davam etdirilir.



Naxçıvan şəhərinin ən böyük tikinti obyektlərindən biri də Naxçıvan Muxtar Respublika Xəstəxanasının binasıdır. 2012-ci ilin avqust ayından başlayaraq "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yenidən qurulan binada ilkin mərhələdə binanın təməl hissəsinin daha da möhkəmləndirilməsi məqsədilə ətraf xüsusi beton örtüyü ilə əhatələnib, zirzəmidə üçmərhələli izolyasiya işləri aparılıb. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada tikinti işləri yekunlaşıb, su, elektrik, istilik xətlərinin çəkilişi başa çatdırılıb. Hazırda dam örtüyünün qurulması davam etdirilir, pəncərələrin şüşələri salınır, fasad hissədə birinci mərtəbənin divarları üzlük daşla üzlənir, binanın zirzəmi hissəsində döşəmə işləri aparılır. Binanın fasad hissəsi klassik və müasir memarlıq elementləri ilə zənginləşdiriləcək, üzlük daş, poliestr və digər yerli inşaat materiallarından istifadə olunacaq. Binada 109 palata yerləşəcək, dördkorpuslu xəstəxana binasının hər korpusunda yük və sərnişin liftləri olmaqla, 10 lift quraşdırılacaq.

Qeyd edək ki, işlər yekunlaşdıqdan sonra binanın zirzəmi hissəsində masaj salonu, SPA mərkəzi, hovuz, duş kabinələri, morq, həkim və tibb bacıları üçün otaqlar və xidməti yerlər yaradılacaq. Birinci mərtəbə stomatoloji kabinələr, təcili yardım, palatalar, fizioterapiya, ot vannası və Naftalan nefti ilə müalicə kabinələri, rentgen, əməliyyat otaqları üçün nəzərdə tutulub. Qalan mərtəbələr isə xəstəxananın şöbə və bölmələri, həkim və tibb bacıları, palatalar və digər müayinə və müalicə otaqları, laboratoriyalar, istirahət guşələri üçün ayrılıb. Binanın sonuncu mərtəbəsində geniş akt zalı, tibb təhsili alan tələbələr üçün siniflər və kafe yerləşəcək.

Bütün bunlarla bərabər, xəstəxana binasından 45-50 metr kənarda yeni bina da tikilir ki, hazırda bu binanın ikinci mərtəbəsində hörgü işləri aparılır, eyni zamanda dam örtüyünün qurulması davam etdirilir. İki mərtəbədən ibarət olacaq binada qazanxana, camaşırxana, elektrik və təsərrüfat otaqları, bufet və sair yerləşəcək.

Müasir layihə əsasında yenidən qurulan xəstəxana binası istifadəyə verildikdən sonra regionun ən nəhəng səhiyyə ocaqlarından biri olacaq.

Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işlərinin bir qolunu da yeni yaşayış binalarının tikilməsi, mövcud binaların əsaslı şəkildə yenidən qurulması təşkil edir. Hazırda "İstiqlal" küçəsindəki 91 nömrəli yaşayış binasında yenidənqurma işləri davam etdirilir. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan bina 36 mənzildən ibarətdir. Cari ilin iyun ayının sonundan başlayan əsaslı yenidənqurma işləri nəticəsində binanın təməli möhkəmləndirilib, eni 3 metr artırılıb.

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlərdən biri də elə adıçəkilən küçədə yeni yaşayış binasının inşa olunmasıdır. Zirzəmi ilə birlikdə səkkizmərtəbəli yaşayış binasının tikintisi Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılır. Hazırda binanın üçüncü və dördüncü mərtəbələrində daxildə suvaq işləri, beşinci mərtəbədə isə arakəsmələrin hörülməsi davam etdirilir. Sonuncu mərtəbədə isə beton-qəlib işləri yekunlaşdırılıb. Bina istifadəyə verildikdən sonra burada 12-si üçotaqlı, 12-si ikiotaqlı, 6-sı isə birotaqlı olmaqla, ümumilikdə, 30 mənzil yerləşəcək.

Qeyd edək ki, bütün tikinti obyektlərində yerli inşaat materiallarına üstünlük verilməsi ilə yanaşı, işin keyfiyyətinə və təhlükəsizlik qaydalarına da ciddi əməl olunur.

✍ Səbuhi HƏSƏNOV

## Naxçıvanda "Sığınacağın istiqamətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi"nə dair regional təlim keçirilib

*Noyabrın 27-də Naxçıvandakı "Duzdağ" oteldə BMT Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycandakı Nümayəndəliyi ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın Statusunun Müəyyənləşdirilməsi İdarəsinin birgə əməkdaşlığı çərçivəsində Naxçıvan Muxtar Respublikasının sərhəd rayonlarında çalışan sərhədçilər və əlaqədar orqanların nümayəndələri üçün regional təlim keçirilib.*

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Şərqi Avropa və Cənubi Qafqaz ölkələrində sığınacaq sistemlərinin keyfiyyətinin artırılması təşəbbüsü layihəsi" çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin dəstəyi ilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətə tinin rəis müavini, kiçik miqrasiya xidməti müşaviri Elnur Məmmədov təlimin məqsəd və məramı barədə iştirakçıları ətraflı məlumatlandırıb.

Bildirilib ki, bu gün qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması Azərbaycanda, o cümlədən onun Naxçıvan Muxtar Respublikasında da daim diqqət mərkəzində saxlanılır. Ölkəmizin gündən-günə artan iqtisadi imkanları bu sahədə əlavə tədbirlərin görülməsinə şərait yaradır.



Qeyd olunub ki, hazırda muxtar respublikada 1151 qaçqın, 252 məcburi köçkün ailəsi yaşayır. Bu qaçqın və məcburi köçkün ailələrinin 5253 üzvünün hər biri dövlət qayğısı ilə əhatə olunub.

"Ermənistanın işğal etdiyi Kərki kəndinin sakinləri üçün indiki Kəngərli rayonunun ərazisində salınan Yeni Kərki kəndində insanların rahat yaşaması üçün lazımi infrastruktur yaradılıb, mənzillər, məktəb, kənd və xidmət mərkəzləri tikilib", – deyən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini vurğulayıb ki, qaçqın və məcburi köçkün ailələrinə Naxçıvan şəhərində də beşmərtəbəli yaşayış binaları, muxtar respublikanın digər bölgələrində məskunlaşan insanlar üçün fərdi mənzillər inşa olunub. Ümumilikdə, 1995-ci ildən sonra qədim diyarda qaçqın və məcburi köçkün ailələrinə 250-yə yaxın mənzil verilib.

Bildirilib ki, muxtar respublika rəhbərinin yüksək diqqət və qayğısı ilə bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin, qaçqınların və məcburi köçkünlərin qəbul edilməsi və onların problemlərinin öyrənilməsi sahəsində öz səlahiyyətləri daxilində böyük işlər görüb. Belə ki, sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin yaradılması, burada elektron köşklərin quraşdırılması, xidmət əməkdaşları tərəfindən hüquqi maarifləndirmə işinin aparılması, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətləri ilə bağlı sadələşdirmələrin tətbiqi ölkəyə gələn hər bir şəxsin hüquqlarının qorunması istiqamətində görülən diqqətəlayiq işlərdəndir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qaçqın, məcburi köçkün və miqrasiya problemləri şöbəsinin müdir müavini Telman Məmmədov deyib ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xüsusiyyətlərindən biri də ölkədə aparılan siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının yaxşılaşmasıdır. Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması və bu sahədə təsirli tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılır. 1993-2014-cü illər ərzində qaçqınların və məcburi köçkünlərin rifah halının yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı 90 fərman və sərəncamın, 32 qanunun imzalanması, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 350 qərar və sərəncamın qəbul edilməsi də bunu təsdiq edir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın Statusunun Müəyyənləşdirilməsi İdarəsinin rəisi Nazim Salmanov miqrasiya məsələləri ilə bağlı ölkəmizdə görülən işlərdən danışıb.

BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinin Hüquq şöbəsi müdirinin müavini xanım Maqdalena Aquilar Pulido bildirib ki, təlimin məqsədi ölkənin sərhəd rayonlarında işləyən və sığınacaq-miqrasiya məsələlərinə cəlb olunan hökumət rəsmilərinin bacarıq, bilik və təcrübələrinin daha da inkişaf etdirilməsinə töhfə verməkdən ibarətdir.

Sonra "Milli qaçqın statusunun müəyyənləşdirilməsi prosedurları haqqında", "Sığınacağa dair milli istiqamətləndirmə prosesi", "Sığınacaq axtaran şəxslərin saxlanılması" və digər məsələlərə dair məruzələr dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb, verilən suallar cavablandırılıb.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi tərəfindən birgə hazırlanmış "Azərbaycanda sığınacaq" adlı məlumat kitabçaları iştirakçılara paylanılıb.

✍ Rauf ƏLİYEV

*Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin Türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir. Minillik dünya təcrübəsi göstərir ki, çoxəsrlik tariximizdə Türk dünyası vəhdətini qoruyub saxlayan ən əsas bağlardan biri də ortaq mədəniyyət və ədəbiyyatdır. Çünki türkdilli xalqlar tarix boyu insan fəaliyyətinin bütün sahələrində öz istedadlarını, biliklərini, bacarıqlarını nümayiş etdirmiş, elmi ixtiraları, qəhrəmanlıq nümunələri, tarixi-memarlıq abidələri, bədii əsərləri, musiqiləri ilə bəşər tarixinə parlaq səhifələr yazmışlar. Bu tarixi uğurlarda türk xalqlarının şairlərinin və yazıçılarının xidməti böyükdür.*



*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti bütün Türk dünyasını əhatə edib

Ulu öndər milli ideallarımıza həmişə böyük hörmətlə yanaşmış, milli tariximizin, dilimiz və ədəbiyyatımızın, milli mədəniyyətimizin köklərinə nüfuz etmiş, keçmiş və gələcəyimizin vəhdətinə, onun ümdə məsələlərinə diqqət yönəltmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, Türk dünyasını əhatə edir.

Türk xalqlarının birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, milli kökə qayıdış, ortaq dəyərlərimizi birləşdirmək ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədlərindən olmuşdur.

Ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayını təşkil etməklə təkcə Azərbaycan xalqının deyil, bütünlüklə Türk dünyasının lideri kimi tarixi missiyanı həyata keçirmişdir.

Dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda türkologiya sahəsində elmi araşdırmaların aparılmasına, türk yazılı abidələrinin qorunmasına, tərcüməsinə və xalq arasında təbliğinə şərait yaradılmışdır. Təsadüfi deyil ki, O, hakimiyyətə gəldiyi ilk illərdə – 1970-ci ildə Türk dünyası elm və mədəniyyətinin mərkəzini yenidən Bakıda formalaşdırmağa təşəbbüs göstərmiş, burada beynəlxalq “Sovet türkologiyası” elmi jurnalının nəşrə başlamasına nail olmuşdur.

Ulu öndərin Türk dünyasına diqqət və qayğısı böyük türkçü, turançı mütəfəkkir Hüseyn Cavidə münasibətində də özünü göstərmişdir. Onun nəşinin Uzaq Sibirdən Azərbaycana köçürülməsi sovet sistemində xeyli çətin, mürəkkəb bir iş olsa da, ümummilli lider Heydər Əliyev bu tarixi missiyasını böyük cəsarətlə həyata keçirmişdir.

Türkdilli abidələrə ekran həyatı verilməsinə təşəbbüs edən ümummilli liderin qayğısı ilə Türk dünyasının möhtəşəm abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanı əsasında “Dədə Qorqud” bədii filmi çəkilmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyev öz fəaliyyətində Türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görmüşdür. Ulu öndərin təşəbbüsü ilə Azərbaycanda qazax şairi Abay Kunanbayevin 125, özbək ədəbiyyatının klassiki, mənşəcə azərbaycanlı olan Maqsud Şeyxzadənin 70 illik yubileyləri təntənə ilə qeyd edilmişdir.

İstər sovet, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə dahi rəhbər Heydər Əliyev türkdilli xalqlar arasında ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində əvəzsiz xidmətlər göstərmişdir. Ağır sovet sistemi şəraitində işləməsinə baxmayaraq, ümummilli liderin fəaliyyətində Türk dünyası ilə əlaqələrin qurulması və genişləndirilməsi mühüm yer tutmuşdur. Məhz ümummilli liderimizin SSRİ rəhbərliyinə tövsiyəsi ilə Azərbaycanla türkdilli respublikalar – Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və başqaları arasında ədəbi-mədəni əlaqələr inkişaf etdirilmiş, mədəniyyət günləri, yubileylər, konsertlər və digər tədbirlər keçirilmişdir. Bütün bu tədbirlər xalqların bir-birinə yaxınlaşmasında, milli oyanışında mühüm rol oynamışdır. Nəticədə, xalqlar öz tarixi keçmişi və gələcək inkişafı haqqında düşünmüşlər ki, bu da Türk dünyasının birləşməsi yolunda geniş strateji fəaliyyətin tərkib hissələrindən biri olmuşdur.

Azərbaycan, həmçinin SSRİ-yə daxil olan digər türkdilli respublikalar dövlət müstəqilliyi əldə etdikdən sonra bu əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir. Ulu öndər Heydər Əliyev 1996-cı ildə Türk Dünyası Yazıçılarının Üçüncü Qurultayının ölkəmizdə keçirilməsini əlamətdar hadisə hesab etmiş və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi çox yüksək qiymətləndirmişdir.

Ümummilli lider Heydər Əliyev türk xalqlarının əlaqələrinin möhkəmlənməsi yolunda atılan bütün addımları yüksək qiymətləndirmiş, fəaliyyəti boyu müvafiq istiqamətdə keçirilən tədbirlərin təşəbbüskarı, təşkilatçısı, iştirakçısı olmuşdur. O, TÜRKSOY beynəlxalq təşkilatının Bakıda keçirilən 8-ci toplantısında təşkilatın yarandığı vaxtdan başlayaraq həyata keçirdiyi məhsuldar fəaliyyətini xüsusilə qeyd etmişdir. Bildirmişdir ki, TÜRKSOY xalqlarımız üçün daha çox iş görə bilər. Mədəniyyət, ədəbiyyat vasitəsilə bu əlaqələri daha da genişləndirmək xalqlarımız üçün çox lazımdır, zəruridir.

Ulu öndər “Kitabi-Dədə Qorqud”un 1300, “Manas”ın 1000, böyük qazax şair-filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, Türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileylərinin türkdilli dövlətlərin bir yerdə qeyd etmələrini böyük tarixi hadisələr kimi çox yüksək qiymətləndirmişdir.

Ulu öndər 1995-ci ildə “Manas” dastanının 1000 illik yubileyi tədbirində iştirak etmək üçün Qırğızıstanın paytaxtı Bişkek şəhərinə səfər etmişdi. Bu tədbirə bütün türkdilli ölkələrin dövlət başçıları toplaşmışdı və bu mədəni tədbir Türk dünyasının mənəvi körpülərinin inkişafı baxımından çox əhəmiyyətli idi. Ulu öndər dövlət müstəqilliyinin verdiyi imkanları yüksək qiymətləndirərək deyirdi ki, biz artıq böyük Türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu “Manas”ın 1000 illik yubileyini birlikdə qeyd etdik. Bu, böyük bir hadisə oldu. Açıq deyək ki, Manasın kimliyi, onun tarixi, yaratdığı irs haqqında o vaxta qədər Azərbaycanda çox az adam bilirdi. Amma qırğızlar bunu etdilər. Biz hamımız – türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır.

Ümummilli lider göstərirdi ki, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi məhz bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev 1999-cu ildə bu möhtəşəm dastanın 1300 illik yubiley komissiyasının iclasında təkidlə qeyd edirdi: “Əgər nəzərə alsaq ki, bizə düşmən olan erməni millətçiləri daim təbliğ edirlər ki, “bunlar köçəri xalqdır, onların keçmişi olmayıbdır”, əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən “Kitabi-Dədə Qorqud” dastanının yubileyi hamısından əhəmiyyətlidir. Bu, bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir... “Dədə Qorqud” dastanı bizi bu gün eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. “Dədə Qorqud” həm Azərbaycanın, həm bütün Türk dünyasının dastanıdır”.

Ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin daha da dərinləşdirilməsi, Azərbaycançılıq məfkurəsinin mənimsədilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas istiqamətlərindəndir. Ona görə də dahi şəxsiyyət Heydər Əliyevin klassik irs təlimində qəlb şairi Məhəmməd Füzuli xüsusi yer tutur. Ulu öndər Füzulinin ədəbi-tarixi mövqeyinə və bənzərsiz poeziyasına tək Azərbaycan ədəbiyyatının faktı kimi deyil, eyni zamanda ümumtürk və bir çox hallarda ümumbəşəri kontekstdə yanaşırdı.

“Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir”, – deyən ulu öndər Füzuli irsini “Azərbaycan xalqının, Türk dünyasının, türk xalqlarının bu günü və gələcəyi üçün böyük örnək” kimi dəyərləndirirdi.

Türk dünyasının böyük oğlu Heydər Əliyev Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdir: “Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi Türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, qədim Türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətini (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır”.

Deməli, 1996-cı ildə Azərbaycanda dahi Füzulinin 500 illik yubileyinin təntənəli surətdə keçirilməsi və müdrik şəxsiyyət Heydər Əliyevin ustad Füzuliyə belə böyük önəm verməsinin səbəblərindən biri, bəlkə də, ən başlıcası XX əsrdə parçalanmış Türk dünyasını birləşdirmək arzusundan irəli gəlmişdir.

Türk dünyasının filosof-yazıçısı Çingiz Aytmatov dünya miqyasında tanınmış, Nobel mükafatına layiq görülmüş sənət adamlarından biridir. Çingiz Aytmatov Azərbaycan ədəbiyyatına, Azərbaycan sənət adamlarına sıx tellərlə bağlı idi. Türk xalqları Çingiz Aytmatovu öz xalqının doğma yazıçısı olaraq qəbul edir. Çingiz Aytmatov dünyada oxşar taleləri yaşayan, insan, zaman, cəmiyyət və gələcək haqqında eyni düşüncədə olan xalqların hamısının yazıçısıdır.

Hələ XX əsrin 60-cı illərindən ulu öndər Türk dünyasının bu görkəmli söz ustasının yaradıcılığına maraq göstərmiş, onunla dəfələrlə görüşmüş, səmimi söhbətlər etmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük yazıçı və ictimai xadim Ç.Aytmatovun şəxsiyyətinə və xidmətinə yüksək qiymət vermişdir: “Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün Türk dünyasının fəxridir”.

Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətdəki yeri və xalqına xidmətləri haqqında Çingiz Aytmatovun aşağıdakı fikirləri kəşməkəşli bir epoxanın fonunda qüdrətli bir şəxsiyyət barəsində roman səviyyəsində ifadə olunan dərin mənalı ümumiləşdirmələr kimi səslənir: “Heydər Əliyev, həqiqətən də, tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir. Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir”.

Fəlsəfi romanlar ustası Çingiz Aytmatovun ölkə Prezidenti tərəfindən “Dostluq” ordeninə (2008) layiq görülməsi Azərbaycan dövlətinin, Azərbaycan xalqının Türk dünyası sənətinə verdiyi yüksək qiymətdir.

Türk dünyasının sevilən söz ustalarından biri də qazax xalqının yetirməsi, görkəmli söz ustası, şair Oljas Süleymenovdur. O.Süleymenov 1970-ci ildə nəşr etdirdiyi “Az i Ya” əsəri ilə Türk dünyasının qədim köklərə malik olduğunu elmi dəlillərlə sübut etmişdi. Lakin türk birliyi, onun qədim mədəniyyəti haqqındakı tezisləri türk düşmənlərini qəzəbləndirmişdi. O.Süleymenovun bədxahları bu türk ziyalısını nüfuzdan salmaq, onu cəmiyyətdən təcrid etmək istəyirdilər. Belə bir məqamda O.Süleymenovu müdafiə edən, onun haqq səsinə səs verən dahi rəhbər Heydər Əliyevin də dəstəklədiyi Azərbaycan ziyalıları oldu. Azərbaycana, ulu öndərə böyük rəğbət bəsləyən O.Süleymenov tez-tez Bakıya səfərlər etmiş, bu torpağın əziz qonağı olmuşdur. Bir neçə dəfə müdrik şəxsiyyət Heydər Əliyev mütəfəkkir şairi qəbul etmiş, Türk dünyası haqqında fikirlərini onunla bölüşmüşdür. 1999-cu ildə O.Süleymenov ulu öndərlə görüşmüş, bu zaman dahi rəhbərimiz onun həmişə, hətta 1990-cı il 20 Yanvar hadisələri zamanı Bakıya gəlməsini razılıq hissi ilə yada salmış və demişdi: “Bizi sizinlə çoxdankı dostluq bağlayır. Hələ o vaxtlar, mən burada, Azərbaycanda, siz isə Qazaxıstanda işləyən dövrlərdə, sonra Moskvada işlədiyim zaman mən sizə böyük iftixar hissi ilə baxırdım ki, xalqlarımızın belə gənc istedadları var; elə istedadlar ki, nəinki romanlar, pyeslər və ya digər ədəbi əsərlər yazmağa, həm də öz xalqı haqqında, onun taleyi, keçmişi, indisi və gələcəyi barədə düşünməyə qadirdirlər. İndi öz tarixi köklərini, tarixi keçmişini, milli özgürlüyünü və milli ləyaqətini daha dərindən dərk etmiş bütün xalqlarımızın belə görkəmli nümayəndələrindən birisiniz. Siz hələ cavanlığınızda bu məsələlərdə çoxlarına nisbətən daha böyük yetkinlik nümayiş etdirirdiniz. Bu, yaxşı məlumdu. O vaxtlar mən bunu görür, müşahidə edir, duyurdum və buna görə də bu, əslinə qalsa, ədəbi istedadınızla yanaşı, məndə sizə hörmət, ən səmimi dostluq hissləri doğururdu”.

Həmin görüş zamanı Oljas Süleymenov ulu öndərin liderlik missiyasını belə dəyərləndirmişdir: “Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə, bəlkə də, bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında, azad və məğrur insanlar olsunlar. Heydər Əlirza oğlu, Sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir”.

Oljas Süleymenovun sənəti Azərbaycanda yüksək qiymətləndirilmiş, ölkə Prezidenti onu “Şöhrət” (2006) və “Dostluq” ordenləri ilə (2013) təltif etmişdir.

Hansı sosial-iqtisadi, ideoloji sistemin mövcudluğundan asılı olmayaraq, ulu öndər Heydər Əliyevin fəaliyyəti türk xalqları arasında əlaqələrin konkret şəraitdə inkişafına xidmət etdiyindən böyük tarixi əhəmiyyət daşımışdır.

***Bu gün eyni məqsəd və məram ulu öndərin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir. Təsadüfi deyildir ki, günbəgün türkdilli xalqların ədəbiyyat adamları, yazıçıları bir-birinə yaxınlaşır, kömək edir, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradırlar.***

**Əbülfəz QULİYEV**
*AMEA-nın müxbir üzvü*

# Heydər Əliyev adına tam orta məktəb təhsil uğurlarını ilbəil artırır

*Naxçıvan Muxtar Respublikasında yeni təhsil müəssisələrinin tikintisi, ümumtəhsil məktəblərinin ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təminatı və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər tədrisin yeni metodlarla tətbiqinə geniş imkanlar açmışdır. Təhsil infrastrukturunun müasirləşdirilməsi sahəsində görülən işlər Heydər Əliyev adına tam orta məktəbi də əhatə etmişdir. Məktəb ötən dövrdə muxtar respublikada təhsilin inkişafına mühüm töhfələr vermiş, ali və orta ixtisas məktəblərinə, hərbi təhsil müəssisələrinə qəbul zamanı uğurlu nəticələr qazanılmışdır.*



Bu il məktəbin yaranmasından 10 il ötür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2014-cü il avqustun 21-də “Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında” Sərəncam imzalamış və yubileylə bağlı Tədbirlər Planını təsdiq etmişdir. Tədbirlər planına əsasən, bu il Heydər Əliyev adına tam orta məktəbin binasında yenidənqurma işləri aparılmışdır. Təhsil ocağında 60 sinif otağı, 5 elektron lövhəli sinif, 3 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və müəllimlər otaqları, emalatxana və idman zalı vardır. Hazırda 1110 şagirdin təhsil aldığı məktəbdə gənclərin təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılmış, internetə çıxış təmin olunmuşdur. Həmçinin elektron lövhəli siniflərdə və laboratoriyalarda da müasir tədris imkanları yaradılmış, elektron dərsliklər və əyani vəsaitlərlə təminat yüksək səviyyədə təşkil olunmuşdur. Məktəbin kitabxana fondunda isə 16 mindən çox dərslik və bədii ədəbiyyat müəllim və şagirdlərin istifadəsinə verilmişdir.

Yaradılan şəraitin nəticəsidir ki, Heydər Əliyev adına tam orta məktəbdə ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrində ilbəil artım müşahidə olunur. 2014-cü ildə məktəbi bitirən məzunlardan 1-i “Qızıl” medala layiq görülmüşdür. Ötən tədris ilində XI sinfi bitirən 48 məzundan 46-sı ali və orta ixtisas məktəblərinə sənəd vermiş, onlardan 45-i tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul olan məzunların 14-ü imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplamışdır.

Muxtar respublikada ali təhsil müəssisələri üçün yaradılan şəraitin nəticəsidir ki, Heydər Əliyev adına tam orta məktəbi bitirən abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində oxumağa daha çox üstünlük verirlər. Belə ki, ötən tədris ilində tələbə adını qazanan məzunlardan 18-i Naxçıvan Dövlət Universitetinə, 3-ü Naxçıvan Müəllimlər İnstitutuna, 1-i Naxçıvan Özəl Universitetinə, 1-i Azərbaycan İqtisad Universitetinə, 1-i Bakı Dövlət Universitetinə, 2-si Azərbaycan Tibb Universitetinə, 1-i Azərbaycan Dillər Universitetinə, 1-i Azərbaycan Dövlət Aqrar Universitetinə, 1-i Azərbaycan Diplomatik Akademiyasına, 1-i Polis Akademiyasına, 2-si Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 1-i Azərbaycan Dövlət Neft Akademiyasına, 2-si Milli Aviasiya Akademiyasına, 3-ü Azərbaycan Memarlıq və İnşaat Universitetinə, 1-i Ukraynanın Xarkov Universitetinə, 3-ü isə Türkiyə Respublikasının müxtəlif universitetlərinə qəbul olmuşdur.

Muxtar respublikada orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, qəbul planının artırılması, yeni ixtisasların yaradılması şagirdlərdə bu sahəyə marağı xeyli artırmışdır. Belə ki, ötən tədris ilində Heydər Əliyev adına tam orta məktəbin 2 məzunu da Naxçıvan Tibb Kollecinə qəbul olmuşdur.

Naxçıvan Muxtar Respublikasında məktəblilərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi daim diqqət mərkəzində saxlanılır. Belə ki, muxtar respublikada Heydər Əliyev adına Hərbi Liseyin yaradılması, təhsil müəssisələrində hərbi kabinələrin fəaliyyət göstərməsi, onlara lazımi avadanlıqların verilməsi, hər il hərbi rəhbərlərin toplantısının keçirilməsi, onların xüsusi hərbi geyim forması ilə təmin olunması, eyni zamanda bu sahə üzrə həyata keçirilən müxtəlif tədbirlər, yarış və müsabiqələr məktəbdə gənclərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin gücləndirilməsinə müsbət təsir göstərmiş, hərbi təhsilə marağı xeyli artırmışdır. Heydər Əliyev adına tam orta məktəbdə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və onların ilkin hərbi vərdişlərə yiyələnməsi diqqət mərkəzindədir. Məktəbin hərbi kabinəsində “çağırışaqədərki hərbi hazırlıq” fənninin tədrisi üçün lazımi şərait yaradılmış, elektron lövhə quraşdırılmışdır. Bu sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, 2014-cü ildə məktəbin 6 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ümummilli liderimizin adını daşıyan məktəbdə təhsil almaq böyük şərəf, şagirdlərə elmin sirlərini öyrətmək isə bununla yanaşı, həm də böyük məsuliyyətdir. Pedaqoji heyətin qarşısında müstəqil Azərbaycanın gələcək təminatçılarını yetişdirmək kimi mühüm vəzifə dayanır. Məktəbdə milli dəyərlərimiz, adət-ənənələrimiz, tariximiz gənclərə dərindən öyrədilməlidir. Təlim-tərbiyə və tədris prosesi bu günə qədər olduğu kimi, bundan sonra da müasir metodlarla qurulmalıdır”.***

Heydər Əliyev adına tam orta məktəbin kollektivi Ali Məclisin Sədri tərəfindən müəyyənləşdirilən bu vəzifələri əsas fəaliyyət istiqaməti kimi götürəcək, gələcək illərdə də uğurlu nəticələrin qazanılması üçün səylə çalışacaqdır.

**“Şərq qapısı”**

# Naxçıvanın yeni növrağı



**Hər daşı, qayası ox nişanlı, hər zümrüdgözlü bulağının pıçıltısında həzin ana laylası çalınan doğma Naxçıvan diyarımız, qədimdən-qədim Naxçıvan şəhəri bina olandan bəri heç vaxt, heç zaman indiki kimi abadlıq adlı sevincin vüsalına qovuşmayıb. Bu inkişafı və tərəqqini görənlər təəccüblənirlər. Təəccüblənirlər ki, son illər ərzində neçə-neçə keçilməz yollar keçib Nuh nəfəsli Əcəmi yurdu.**

**Son 19 ilə yaxın müddətdə muxtar respublikamız, sözün həqiqi mənasında, yeniliklər dövrünü yaşayır. Bu illər ərzində yurdumuzun elə bir ünvanı olmayıb ki, orada yeni bir bina inşa olunmasın, yol çəkilməsin, parklar, istirahət mərkəzləri yaradılmasın, tarixi abidələr bərpa edilməsin. Saysız-hesabsız tikililər, öz simasını dəyişən küçələr, rahatlığı, təmizliyi ilə seçilən istirahət guşələri, parklar, xiyabanlar torpağa insan əli ilə çəkilən əsrarəngiz naxışlar kimi göz oxşayır.**

Müstəqil Azərbaycan Respublikasının bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da son illər böyük quruculuq işləri aparılmış, muxtar respublikanın hərtərəfli inkişafına nail olunmuşdur.

Ötən 19 il Naxçıvan Muxtar Respublikasının çağdaş tarixinə sosial-iqtisadi inkişafın yeni uğurlu dövrü kimi yazılıb. Muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, əhalinin maddi rifah halının yaxşılaşdırılması, inkişafın mərkəzlə yanaşı, kəndlərə də istiqamətlənməsi, kəndlə şəhər fərqinin aradan qaldırılması həmin uğurların ciddi fundamental mahiyyətindən, geniş miqyasından xəbər verir.

Muxtar respublikamızda son illər tikinti-quruculuq işlərinin həcminin daha da artırılması, coğrafiyasının genişləndirilməsi qədim diyarımızın hüsnünə sözlə ifadə edilməsi mümkün olmayan gözəlliklər bəxş edib. Bu yeniliklər Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərindən başlayaraq, ən ucqar dağ və sərhəd, həmçinin ən kiçik kənd yaşayış məntəqələrini də əhatə edir. Bu gün Naxçıvan Muxtar Respublikası görülən işlərin həcminə və keyfiyyətinə görə Azərbaycanın digər bölgələrinə nümunədir. Muxtar respublikamız blokada şəraitində olmasına baxmayaraq, sürətli inkişaf yolundadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan haqqında danışarkən demişdir: ***“Naxçıvan blokada şəraitində yaşayır. Ancaq naxçıvanlılar bu blokadanı hiss etmirlər. Çünki həm Naxçıvanın rəhbərliyi çox böyük işlər görür, həm də Azərbaycan dövləti, hər zaman olduğu kimi, Naxçıvana böyük diqqət göstərir”.***

Naxçıvanda yeniləşmə prosesi müasir üslubda, milli özünəməxsusluğa uyğun, hərtərəfli, genişmiqyaslı olub, diyarın bütün ərazisini əhatə edir. Naxçıvan şəhəri yüksək diqqətlə, zövqlə, sistemli şəkildə yenidən qurulur. Rayon mərkəzləri və iri yaşayış məntəqələri də eyni meyar və tələblə abadlaşdırılır, müasirləşdirilir. Ən ucqar kəndlər belə, həyat standartları səviyyəsinə qaldırılır. Yollar, kommunikasiyalar, xidmət obyektləri də yenidən qurulur, ümumi yeniləşməni tamamlayır. Dağ kəndlərində müasir təhsil ocaqları və digər sosial obyektləri görəndə yurd sevgisinin nəyə qadir olduğunu əyani görürsən.

Yaxşı cəhət ondan ibarətdir ki, görülən işlər yalnız muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, yaxud digər rayon mərkəzləri ilə məhdudlaşmayıb, bu inkişaf ucqarlara da sirayət edib. Ancaq Naxçıvan şəhəri həm yeniləşməsinə, həm də müasir memarlıq üslubunda qurulmasına, gözəlliyinə görə seçilir. Qədim Naxçıvan şəhəri tarix boyu heç vaxt belə sürətli, bütöv inkişafın şahidi olmayıb. Naxçıvanın tarixində analoqu olmayan rahat, geniş yollar, yaşıllıqlara qərq olan abad küçələr, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli memarlıq kompleksləri, ən qabaqcıl, ali və orta təhsil ocaqları ilə rəqabət aparıb qalib gələ biləcək yeni məktəblər, texnologiyanın son nailiyyətlərinə əsaslanan, ekoloji cəhətdən təmiz məhsulları ilə diqqəti cəlb edən çoxsaylı sənaye obyektləri – bütün bunlar qədim şəhərin yeni zirvələri, bu bölgədə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin təntənəsidir.

Beş min ildən artıq şəhərsalma tarixi olan ulu Naxçıvan, əsrlərin, minillərin tarix yollarında heç vaxt yorulmayan bu şəhər qədimliyi qoruyub saxlamaq prinsipi ilə yeniləşən diyara çevrilib. Naxçıvan artıq bu gün yeni yollarla, geniş prospektlərlə, əzəmətli binalarla, gözoxşayan, könülsevindirən müasir memarlıq abidələri ilə, inkişafın nəhəng addımları ilə irəliləyən qədim tarixli yeni şəhərdir. Naxçıvan şəhərini gəzdikcə hər addımda inkişafın yeni bir mənzərəsi ilə qarşılaşırsan. Doğrudan da, bu şəhər əsl övlad məhəbbəti ilə tikilir, qurulur, abadlaşdırılır. Milli memarlıqla dünya şəhərsalma mədəniyyətinin uğurları bir-birini tamamlayır. Yenilik təkcə şəhərin xarici görünüşündə, memarlıq seçimlərində yox, eyni zamanda təzə tikilən binaların daxilindəki dizayn, tərtibat estetikasında da diqqəti cəlb edir. Öz imkanları hesabına yüksək inkişafa və rifaha nail olmaqla bu yerin qadir insanları dövrümüzün “Naxçıvan möcüzəsi”ni yaratmışlar.

Fərəhləndirici haldır ki, Naxçıvanın bugünkü yüksək sosial, iqtisadi və mədəni inkişafı 90 illik muxtariyyət tarixinin zirvəsi kimi dəyərləndirilir. “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında da deyildiyi kimi: ***“Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir”.***

Bu yüksək qiymətin davamı olaraq, Naxçıvanda keçirilən 90 illik yubiley mərasimində Prezident cənab İlham Əliyev doğma diyarımızın çiçəklənməsi naminə göstərilən tarixi hünərə belə qiymət vermişdir: ***“…Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır... Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları təbrik edirəm... Bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir”.***

Zəngin dövlətçilik, qüdrətli sivilizasiya yollarının sahibi, beş min ildən artıq şəhərsalma tarixi olan ulu Naxçıvan bu gün əsl inkişaf və tərəqqi meydanını xatırladır. Blokada şəraitində yaşamasına baxmayaraq, belə bütöv, kompleks inkişafa nail olmaq, aydan-aya, ildən-ilə inkişaf tempini daha da yüksəltmək haqlı qürur hissi doğurur. Bu, insanın öz doğma, əzəli torpağı qarşısında həqiqi övladlıq borcunu şərəflə yerinə yetirməsi, öz ana Vətəninə əsl xidmətin təntənəsidir. Bu, ümummilli liderimiz Heydər Əliyevin Vətənə hüdudsuz sevgi və sədaqətinin, onun müdrik, uzaqgörən siyasətinin layiqincə davam etdirilməsidir. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***“Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi çox yüksək səviyyədədir”.***

Tarix boyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, torpağın altında və üstündə zəngin mədəni irs qoymuş qədim Naxçıvan bugünkü intibahı ilə sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qol-qanad açıb daha xoş sabahlara doğru pərvazlanır. Tarixin yeni Naxçıvanı dostlarımızı sevindirir, düşmənlərə isə gözdağı verir. Muxtar respublika milli dəyərlərə söykənərək inkişaf etdirilir, Vətən, yurd sevgisi üzərində müasir Naxçıvan ucaldılır. Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: ***“Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”.*** Bu gün Naxçıvan Muxtar Respublikası bütün sahələrdə əsl nümunə gücünə malikdir.

***Qızıltac ŞAHBAZOVA***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

# Qiymətli dərman bitkiləri




***Ağ zirinc.*** Respublikamızın bölgələrində qırmızı, sarı və qonur rəngə çalan zirincin növlərinə rast gəlmək mümkündür. Ancaq Naxçıvan torpağında bu qiymətli dərman bitkisinin süd kimi ağ növünə də rast gəlinmişdir ki, bu növ Şahbuz dağlarında da bitir. Bir dəfə 90 yaşlı Zərif nənə içərisində ağ zirinc olan küftə bişirmişdi. Heyrətləndim. Dedi ki, ətin rəngi onsuz da küftədə boğunuq olur, gərək zəfəran, sarıkök, çağalağul da əlavə edəsən. Qırmızı zirincdən fərqli olaraq, ağ zirinc küftənin rəngini açır, dadı, tamı qırmızı zirincdən də yaxşı olur.

Elmi təbabətdə zirincin yarpağı, meyvəsi, hətta cavan köklərindən hazırlanmış dərman öd yolu, qaraciyər, böyrəkdaşı xəstəliklərində, daxili qanaxmalarda, qanazlığı, qan təzyiqi, sinqa, raxit xəstəliklərində işlədilir. İstər ağ, istərsə də qırmızı zirinci yığarkən təbiətin bu nadir töhfəsinə xəsarət yetirmədən səliqə ilə yığmaq lazımdır. Unutmaq olmaz ki, təbii halda bitən zirincin sındırılan budaqlarının bərpası 5-10 il çəkir.

***Qara istiotun*** vətəni Hindistan olsa da, yayıla-yayıla Naxçıvan torpağına da gəlmişdir. Şahbuzun Külüs kəndində illər əvvəl 12 hektarda fərdi bağ salmış Hacı Müslüm babanın bağında bitən qara istiot kolunu indi də becərənlər vardır. Şahbuzkənddə Tarverdi babadan hədiyyə aldığım kiçik bir fidan indi ildə 1 kiloqramdan çox qara istiot gətirən ağaca çevrilmişdir. Qara istiot ən sərt şaxtalara asanlıqla tab gətirir. Meyvələri xırda, yumru, yetişdikcə qaralan, qiymətli ədviyyatdır. Ətirli iyi vardır. Həvəngdəstədə döyülüb toz halına salınaraq mətbəxdə və yeyinti sənayesində işlədilir. Həzmi yaxşılaşdırmaq xüsusiyyətinə malikdir.

***Üvəz.*** Yerli əhalinin “əppəkli” kimi tanıdığı bu bitkiyə “quşarmudu” da deyilir. Muxtar respublikamızın dağlıq yerlərindəki meşə və kolluqlarda yayılsa da, ehtiyatı azdır. Üvəzin tam yetişmiş meyvələri kənardan budaqlarda nisbətən xırda gilas sırğalarını xatırladır. Kom-kom olur. Maraqlıdır ki, çörəyin qıt olduğu illərdə, payızda yetişən turşməzə, bir az da şirinə çalan meyvələrindən bir cib yığılıb yeyiləndə, ata-babalarımız demişkən, elə bil iki lavaş yemisən. Buna görə çölçülükdə çörəyi əvəz edən bu bitkiyə “əppəkli” adı da verilib. Dağ kəndlərində çox gözəl və dadlı mürəbbə də hazırlanan üvəzin meyvəsindən mədə-bağırsaq, tənəffüs yolları xəstəliklərinin müalicəsində də istifadə olunur.

***Mərmərik*** xırda kol bitkisidir. Yetkin meyvələri budağa bitişik halda kiçik giləni xatırladır. Mərmərik meyvələri turşməzə, susuzluğu yatıran giləmeyvədir. Böyrək yollarının iltihabı və duz qırıntıları ağrılarında şəfalı bitki kimi istifadə edilir.

***Sumaq,*** əsasən, Ordubad dağlarında yayılmışdır. Daşlı, bir qədər də nəm olan yamaclarda kök sistemi dərinə işlədiyindən torpaq eroziyası və aşınmasının təbii şəkildə qarşısını alan nadir bitkilərdən hesab olunur. Yetkin, turşməzə meyvələri qurudulub üyüdülərək milli xörəklərdə (piti, kabab) qan təzyiqini qabaqlayıcı ədviyyat kimi istifadə olunur. İştahartırıcı xüsusiyyətə malikdir. Meyvələri oktyabrda kiçik süpürgəcik şəklində yetişir. “Qırmızı kitab”a salınaraq mühafizə olunur.

***Danaayağı*** el arasında “kecab” də adlanır. Yağlı bitkidir. Muxtar respublikamızda ən çox Şahbuz rayonundakı “Qala güneyi” adlanan yerdə bitir. Təzə dəriləndə yarpaqlarında acılıq çox olur. Bəlkə, buna görə də ona “ilan ağusu”, “ilan kölgəsi” də deyilir. Gövdəsinin hündürlüyü 40-50 santimetrdir. Ovalvari yarpaqları və ortadan nizə kimi çıxan toxumluq gövdəsi olur. Tirimli yerlərdə vən kolları dibində bitir. Sanki ana təbiət bu bitkini kollar vasitəsilə qoruyur. Aşağı və Yuxarı Qışlaq, Kolanı, Qızıl Qışlaq və Ayrınc kəndlərində yerli əhali kecabı may ayında yığaraq onun yarpaqlarını saç kimi hörüb kölgədə qurudub qış tədarükü edir. Bişirilməsi əvəlikdə olduğu kimidir. Fərqi ondadır ki, kecabı qaynadanda suyunu atmırlar, mədə-bağırsaq xəstəliklərində çaytikanı yağı kimi müalicəvi təsirə malikdir, qaşıqla içilir. Qaynadılmış kecabı sıxıb sarımsaqlı qatıqla yemək faydalıdır. Qış fəslinin yeməyi olan unlu-umaclı aşa qatqı kimi əlavə edilir.

***Zirənin*** əsl vətəni Culfa rayonu ərazisindəki Ləkətağ dağlarıdır. Misilsiz ətrə malik dəmləməsi olur. Həzm prosesində köpə qarşı ən nadir təbiət töhfəsidir. İlin rütubətinə görə boyu 20-60 santimetr hündürlüyündə olan çətirçiçəkli bitkidir. Təbiət həvəskarları onun toxumu yetişəndə çətirdən necə çırtlayıb kənara düşdüyünü də müşahidə edirlər. Zirədən ədviyyat kimi istifadə olunur.

***Motmotu.*** Ordubad dağlarında təbii halda bitən, son 25-30 ildə həvəskar bağbanlar tərəfindən həyətyanı sahələrdə də becərilən sarıçiçəkli, yarımkol bitkisi olan bu giləmeyvəyə nədənsə “rus alçası”, “firəng üzümü” adlarının da verilməsi təəccüb doğurur. Təbiət həvəskarı kimi becərdiyim bu bitkinin qaralan qarağata oxşar meyvələri getdikcə zəngin tərkibə malik olur. Dekabr şaxtalarında çöl armudu kimi dözüm göstərir. Bioloq alimlərimizin tədqiqatlarına görə, qiymətli dərman bitkisidir. Mürəbbə və kompotu olduqca qidalıdır, xüsusən ürək-damar xəstəliklərinin müalicəsində son dərəcə əhəmiyyətlidir. Muxtar respublikamızda zoğaldan sonra, martın axırlarında ətirli çiçək açan ikinci bitkidir. Arı pətəkləri işə qoyulan kimi arılar bu ətirli çiçəklərdən nektar çəkirlər. Motmotu çiçəkləyib, deməli, yaz gəlib.

***Çaytikanı.*** Mədə-bağırsaq xəstəliyinin ən qiymətli məlhəmi sayılan çaytikanı yağının 50 qramlıq flakonu sovet dönəminin 50 rubluna da tapılmırdı. Altay vilayətinin Biysk şəhərindəki biofabrikdə istehsal olunurdu. Sən demə, Naxçıvan torpağında da çaytikanı bitərmiş. Akademik Həsən Əliyev adına Araz Elm-İstehsalat Birliyi yaxın illərdə Pircüvar düzündə 5 hektaradək sahədə çaytikanı giləmeyvə bağını bara salmışdır. Meyvələri sarı-narıncı rəngə çalır. Oktyabrda çaytikanının əsl yığım mövsümüdür. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda indi elə məlhəmlər hazırlanır ki, daha xarici ölkələrə üz tutmağa gərək yoxdur. Çaytikanının “ata” və “ana” növləri vardır. Yalnız bir-birlərini tozlandırmaqla bar verir. Biri çatışmadıqda bar vermir. Çaytikanı meyvələrinin tərkibində A, C, B vitaminləri ilə yanaşı, son dövrlərdə aşkar olunan “E” vitamini də, alma, limon turşuları, karotinoidlər olduğundan ondan alınan cövhər və məlhəmlər daxili yaraların, səthi yanıqların, hətta şüalanmadan xəstələnənlərin müalicəsində uğurla istifadə olunur. Mədə yaralarında və xoralarında yarasağaldıcı xüsusiyyətə malikdir. Varlığa nə darlıq? Çaytikanı bolluğu bazarlara da çıxmışdır. Yetkin meyvələri yuyulur, suyu çəkiləndən sonra bərnilərə yığılıb zövqə görə üzərinə qənd şərbəti əlavə edilərək 20-30 dəqiqə odda sterilizə edilərək kompotu hazırlanır. Hətta sıxılan şirəsini sterilizə edərək püre və jelesini hazırlayanlar da vardır. Jele hazırlayanda 1 kiloqram şirəyə 600 qram şəkər tozu qatılıb qaynadılaraq bişirilir, soyudulub quru bərnilərə yığılaraq ağzı kip bağlanır.

**Qaşdar ƏLİYEV**
**aqronom-fenoloq**

## Aztəminatlı ailələrə başçəkmələr davam etdirilir

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumata görə, Culfa rayonunun Ərəzin kəndində yaşayan I qrup əlil Rəfael Əsgərovun ailəsinə baş çəkilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçiriblər. Ailəyə məişət əşyası və ərzaq payı verilib.**

**Aztəminatlı ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.**

**Xəbərlər şöbəsi**

*Culfa Rayon İcra Hakimiyyətinin və Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə Culfa rayonunda “Sığorta-pensiya sisteminin mahiyyəti və bu sahədə elektron xidmətlərin tətbiqi” mövzusunda maarifləndirici tədbir keçirilib.*

## Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi genişləndirilir

Tədbiri giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Aparatının Gəlirlər şöbəsinin müdiri Yaşar Məmmədov, Fərdi uçotun təşkili şöbəsinin müdiri İsmayıl Həsənov və Pensiya təyinatı şöbəsinin baş məsləhətçisi Fərzi Seyidov çıxış edərək sığorta-pensiya sistemində informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin tətbiqindən danışıblar.

Bildirilib ki, informasiya və kommunikasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqi inkişaf etdirilib.

“Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi” elektron xidməti sığortaedənlər, o cümlədən işəgötürənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq mülkiyyətçiləri tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini xeyli asanlaşdırıb. Bu elektron xidmət sistemindən istifadə etmək üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və ya torpaq mülkiyyətçiləri ***www.dsmf.nakhchivan.az*** saytında “Elektron xidmətlər” bölməsinə daxil olmaqla müvafiq xidməti seçərək plastik kartlar vasitəsilə məcburi dövlət sosial sığorta haqlarını onlayn ödəyə bilərlər. Eyni zamanda sığortaedənlər məcburi dövlət sosial sığorta hesabatlarını (Bəyannamə 1, Bəyannamə 2 və Bəyannamə 3) internet üzərindən elektron poçt rejimində çatdıra bilərlər. İstifadəyə verilən elektron xidmətlər içərisində “Avtomatlaşdırılmış pensiya təyinatı” və “Pensiya kalkulyatoru” mühüm yer tutur. Fondun 2014-cü il noyabr ayından istifadəyə verilən avtomatlaşdırılmış pensiya təyinatı sistemi sayəsində pensiya yaşına çatmış vətəndaşa Pensiya şöbəsində yaradılan pensiya təyinatı xidmətinə, ***(+99436) 550-59-79*** nömrəsinə zəng etməklə və şəxsiyyət vəsiqəsinin nömrəsini bildirməklə real vaxt çərçivəsində pensiya təyin olunması həyata keçirilir. Noyabr ayında 10 nəfərə bu sistem vasitəsilə pensiya təyin edilib.

Təqdim olunan xidmətlərdən biri də “Sığortaolunanın onlayn uçota alınması” xidmətidir. İşəgötürənlər və digər sığortaedənlər bu xidmət vasitəsilə yeni əmək fəaliyyətinə başlayan vətəndaşlar üçün “Q3” ərizə formasını dolduraraq təsdiq etdikdən sonra onların sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesi elektron qaydada həyata keçiriləcək.

Bildirilib ki, bütün bunlarla yanaşı, yaxın gələcəkdə sığorta-pensiya sistemində nəzərdə tutulan digər elektron xidmətlərin tətbiqi üçün də müvafiq tədbirlər həyata keçirilir.

Culfa rayonunda sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı görülən işlər barədə fondun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə tədbir iştirakçılarına məlumat verib.

Sonda elektron xidmətlərin tətbiqi ilə əlaqədar slayd nümayiş olunub, iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## “Siqaretlə mübarizə” mövzusunda maarifləndirici tədbir

Dünən Naxçıvan Tibb Kollecində “Siqaretlə mübarizə” mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq qeyd edib ki, müasir dövrümüzdə bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biri siqaretlə mübarizədir. Tütünün insan orqanizminə ziyanları haqqında nə qədər təbliğat aparılsa da, təəssüflər olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır. Hazırda dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da tütünə qarşı mübarizə aparılır. Belə ki, radio və televiziyalarda tütün əleyhinə müxtəlif təbliğat kampaniyaları həyata keçirilir. “Siqaret çəkmənin məhdudlaşdırılması haqqında” Qanun layihəsi Milli Məclisin gündəliyində duran məsələlər sırasındadır.



Sonra kollecin 3-cü kurs tələbəsi Taleh Cəfərov çıxış edib. O bildirib ki, bu günə qədər siqaretdən azad olmağın müxtəlif üsulları araşdırılıb və ictimaiyyətə təqdim olunub. Lakin ziyanın nə qədər böyük olduğunu insan dərk etməsə, siqaretdən imtina edə bilməz. Siqaret sağlamlığa ziyandır. Hər il dünyada siqaretin səbəb olduğu xəstəliklərdən beş milyon insan dünyasını dəyişir. Siqaret ürək xəstəliklərinə səbəb olan birinci amildir. Siqaret çəkənlərin ürək döyüntüləri sağlam insandan 15 min döyüntü çoxdur. Damarların sıxılması nəticəsində oksigen qidalanması aşağıdır. Tütün və tütün tüstüsü 3000 kimyəvi birləşmədən ibarətdir ki, bunların 60-dan çoxu kanserogendir. Bu kanserogen birləşmələr genetik hüceyrələri zədələyə bilir, xərçəng şişlərinin yaranmasına səbəb olur. Siqaret çəkmək göz zəifliyinə gətirib çıxarır. Alimlər neçə illərdir ki, bu barədə fərziyyələr irəli sürüblər və müasir texnologiyaların köməyi ilə bu sübut olunub. Hər bir siqaret çəkənin görmə qabiliyyətini itirmək riski vardır.

Vurğulanıb ki, bu problemin aradan qaldırılması yolunda müəyyən addımlar atılmaqdadır. Əslində, bu haqda müəyyən qaydalar olsa da, əfsuslar olsun ki, bu qaydalara siqaret çəkən vətəndaşlarımız riayət etmirlər. Belə ki, hazırkı qanunvericiliyimizə əsasən, siqaretin təhsil, idman, səhiyyə və mədəniyyət müəssisələrində çəkilməsi və satışı qadağandır. Lakin bütün tədbirlərlə yanaşı, ictimaiyyət də bu ciddi problemə biganə qalmamalı, hər bir şəxs bu yöndə təbliğat işi aparmalı, ictimai yerlərdə siqaret çəkənlərin qarşısını almağa çalışmalıdır.

Sonda iştirakçılara “Siqaretin zərərlərini bilirsinizmi?” adlı məlumat vərəqləri paylanılıb.

**Sona MİRZƏYEVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 999